Azəbaycan Respublikası

Təhsil Nazirliyi

Azəbaycan Təhsil İşçiləri Azad Həmkarlar

İttifaqı Respublika Komitəsi

Respublika ali təhsil müəssisələrində təhsil alan tələbələrin müxtəlif fənlərə marağının artırılması, həmin fənlər üzrə yüksək bilik nümayiş etdirən tələbələrin aşkar edilməsi və onlarda biliyə olan həvəsin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti

QƏRARA ALIR:

1. Tələbələrinin XVI Respublika fənn olimpiadası (riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, ingilis, alman, fransız və rus dilləri fənləri üzrə) 2011-ci ilin aprel-may aylarında 2 tur üzrə keçirilsin.

2. Olimpiadanın I turu 2011-ci il 5 - 30 aprel tarixlərində ali təhsil müəssisələrində, II yekun turu cari ilin may ayında Azərbaycan Dövlət İqtisad Universitetində keçirilsin.

3. Olimpiadanın keçirilməsi məqsədilə Təşkilat komitəsi (əlavə 1) yaradılsın .

4. Olimpiadanın keçirilməsi ilə bağlı tərəflər öz üzərinə aşağıdakıları götürür:

4.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

- Olimpiada qalibləri üçün diplomların hazırlanmasını;

- Olimpiada qalibləri üçün hədiyyələrin alımasını.

4.2. Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi:

- Olimpiada qaliblərinə aşağıdakı məbləğdə mükafatların verilməsini:

1-ci yer (12 nəfər) üçün 300 manat

2-ci yer (24 nəfər) üçün 150 manat

3-cü yer (36 nəfər) üçün 100 manat

- Münsiflər heyətinin sədrlərinə (12 nəfər) 200 manat məbləğində pul mükafatının ayrılmasını.

5. Tərəflər olimpiadanın keçirilməsi və qaliblərin mükafatlandırılması ilə bağlı xərclər smetasını hazırlayıb 15 gün müddətində təsdiq etsinlər.

6. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını və İnternet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Qərarın icrasına nəzarət nazir müavini İ.Hüseynovaya və sədr müavini Ş.Əsgərova həvalə olunsun.

Azəbaycan Respublikasının təhsil naziri: Misir Mərdanov	Azəbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri: Səttar Mehbalıyev

31 mart 2011-cu il, № 509

Ali məktəb tələbələrinin XVI Respublika fənn olimpiadasının keçirilməsi haqqında

Azərbaycan Respublikasi Təhsil Nazirinin əmri

Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin 31 mart 2011 tarixli, 509 nömrəli qərarını nəzərə alaraq,

ƏMR EDİRƏM:

1. Tələbələrin XVI Respublika fənn olimpiadası (riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, ingilis, alman, fransız və rus dilləri fənləri üzrə) 2011-ci ilin aprel-may aylarında 2 tur üzrə keçirilsin.

2. Olimpiada keçirilən fənlərin siyahısına biologiya fənni əlavə edilsin.

3. Olimpiadanın I turu 2011-ci il 5 - 30 aprel tarixlərində ali təhsil müəssisələrində, II yekun turu cari ilin may ayında Azərbaycan Dövlət İqtisad Universitetində keçirilsin.

4. Olimpiadanın keçirilməsi məqsədilə Təşkilat komitəsi (əlavə 1) və Münsiflər heyəti (əlavə 2) yaradılsın .

5. "Tələbələrinin XVI Respublika fənn olimpiadası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə 3).

6. Ali təhsil müəssisələrinin rektorları:

6.1. Olimpiadanın I turunun yüksək keyfiyyətdə keçirilməsi təmin etsinlər;

6.2. Olimpiadanın I turunda qalib çıxmış və II tura vəsiqə qazanmış tələbələrin siyahısı, habelə onların hər biri üçün "Olimpiada iştirakçısının anketi" 2011-ci il 5 may tarixədək Təhsil Nazirliyinə təqdim etsinlər.

7. Olimpiadanın II turunun yüksək təşkilatçılıq səviyyəsində keçirilməsinin təmin edilməsi Azərbaycan Dövlət İqtisad Universitetinin rektorunа (Ş.Hacıyev) tapşırılsın.

8. Təhsil Nazirliyinin Elm şöbəsi (G.Hüseynova) :

8.1. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) ilə birgə Olimpiadanın xərclər smetasını 15 gün müddətində hazırlayıb təsdiq üçün təqdim etsin.

8.2. Ali təhsil müəssisələrində Olimpiadanın I turunun yekunlarının ümumiləşdirilməsi, müvafiq məlumat bazasının hazırlanması həyata keçirsin.

8.3. Olimpiadanın II turunun keçirilməsi üçün lazımi tədbirlər görsün.

8.4. Olimpiada qalibləri üçün diplomların hazırlanması və hədiyyələrin alınmasını təmin etsin.

9. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını və nazirliyin veb-saytında yerləşdirilməsini təmin etsin.

10. Ümumi şöbə (H.Məmmədova) əmrin çoxaldıldıb yerlərə göndərilməsini təmin etsin.

11. "Ali məktəb tələbələrinin Respublika fənn olimpiadası haqqında Əsasnamənin təsdiqi barədə" Azərbaycan Respublikası Təhsil Nazirliyinin 22 iyul 2004-cü il tarixli, 675 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

12. Əmrin icrasına nəzarət nadir müavini İ.Hüseynovaya həvalə olunsun.

Misir Mərdanov

Azərbaycan Respublikasının

təhsil naziri

07 aprel 2011-cu il

№ 533

Olimpiada iştirakçısının anketi

Əlavələr

1. Ali məktəb tələbələrinin XVI Respublika fənn olimpiadasının təşkilat komitəsi

3. Tələbələrin XVI Respublika fənn olimpiadası haqqında Əsasnamə